# **Həftəlik**

# *Bülleten*



**112**

**10 Oktyabr 2025**

- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və lahiyələr
- Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**Sənaye parklarının rezidentləri indiyədək 525 milyon manata qənaət ediblər.**

İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan sənaye parklarında fəaliyyət göstərən sahibkarlara ümumilikdə 1805 ədəd, cari ilin 8 ayında isə 210 ədəd təsdiqedici sənəd verilib.

İZİA-dan bildirilib ki, bu sənədlər əsasında rezidentlər sənaye parklarında tətbiq edilmiş idxal ƏDV-si və gömrük güzəştləri nəticəsində ümumilikdə 524,5 milyon manatdan çox, 2025-ci ilin yanvar-avqust aylarında isə 19,5 milyon manatdan artıq şəxsi vəsaitlərinə qənaət ediblər.

Qeyd edək ki, sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, həmçinin istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından tam azad olunurlar.



**BŞİH: "Sovetski"də 150-yə yaxın tarixi bina qorunub saxlanılır.**

Son günlər sosial şəbəkələrdə bəzi şəxslər tərəfindən Bakının Yasamal rayonunda, "Sovetski" adlanan ərazidə guya arxitektur binaların sökülməsi ilə bağlı əsassız məlumatlar paylaşılır. Bakı şəhər İcra Hakimiyyəti mətbuat xidmətindən verilən xəbərə görə, bu cür paylaşımlar ictimaiyyəti çaşdırmaq və süni narazılıq yaratmaq məqsədi daşıyır. Qeyd edilib ki, "Sovetski" ərazisində ümumilikdə 150-yə yaxın tarixi bina qorunub saxlanılır: "Bu işlərin gedişinə nəzarət etmək üçün bir neçə dövlət qurumunun nümayəndələrinin iştirakı ilə xüsusi Komissiya da yaradılıb. Komissiya tərəfindən ərazidəki bütün arxitektur binaların tam siyahısı hazırlanıb. Hazırda yalnız istismar müddəti başa çatmış və qəzalı vəziyyətdə olan tikililərin söküntüsü həyata keçirilir. Bu proses tarixi binalara zərər yetirilmədən aparılır. Qəzalı binaların söküntüsü başa çatdıqdan sonra isə ərazidə yerləşən arxitektur tikililərin bərpası, restavrasiyası və özüllərin bərkidilməsi işlərinin görülməsi planlaşdırılır. Ərazidə yaşayan sakinlərə isə bazar dəyərinə uyğun kompensasiya ödənilir. "Sovetski"də aparılan bütün proseslər qanun çərçivəsində və xüsusi Komissiyanın nəzarəti altında həyata keçirilir".



**Azərbaycana idxal olunan bu mallar üçün gömrük rüsumu dəyişib.**

Nazirlər Kabineti "Azərbaycanın xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edib. Nazirlər Kabinetindən verilən xəbərə görə, qərar ölkənin xarici ticarət siyasətinin tənzimlənməsi, yerli istehsalın müdafiəsi, idxal-ixrac əməliyyatlarında şəffaflıq və sabitliyi təmin etmək məqsədi daşıyır. Dəyişikliklər əsasən beynəlxalq mal nomenklaturasının bəzi alt yarımmövqelərinə (xüsusilə ayaqqabı, qoruyucu burunaltılı ayaqqabı, şüşə və polad məhsulları) aid tarif dərəcələrinin yenilənməsi ilə bağlıdır. Əsas məqamlar:

• müxtəlif kodlarla idxal edilən armaturlaşdırılmamış şüşə lövhələrin idxalının şüşənin 1 tonu üçün 31.12.2030 tarixinədək 200 ABŞ dolları təyin edilir. Belə ki, hazırda idxal gömrük rüsumlarının dərəcələri 15 faizdir.

• müxtəlif kodlar altında təsnif edilən armaturlar, dəmir çubuqlar üçün idxal gömrük rüsumlarının 31.12.2030 tarixinədək 15 faiz və ya 1 tonuna görə 200 ABŞ dollarından az olmamaqla təyin ediləcək. Hazırda idxal gömrük rüsumlarının dərəcələri məhsulun idxal kodundan asılı olaraq 5 və 15 faizdir. Dəyişikliklər yerli istehsalın inkişafını dəstəkləmək, daxili bazarda rəqabət şəraitini qorumaq, eyni zamanda keyfiyyətli və təhlükəsiz məhsulların idxalını təşviq etmək məqsədi daşıyır. Qərar dərc edildiyi gündən 30 gün sonra qüvvəyə minir.



**Neftçala Sənaye Məhəlləsi sualtı elektrod və paslanmayan qaynaq çubuqlarının istehsalına hazırlaşır.**

2021-ci ilə kimi tikintidə geniş istifadə olunan qaynaq vasitəsi – elektrodlar ölkəmizə tam şəkildə xaricdən idxal edilirdisə, Neftçala Sənaye Məhəlləsinin rezidenti “Gedik Kaynak” MMC vəziyyəti kökündən dəyişib. Belə ki, şirkətin “GeKa” brendi adı altında satışa çıxardığı elektrodlar daxili bazarın tələbatını qarşılamaqla yanaşı, xarici bazarda da satışa çıxarılıb. Şirkətin ilk ixrac ünvanı isə Türkmənistandır. İndiyə kimi bu ölkəyə 200 ton elektrod göndərilib və yaxın zamanda bu həcmin 600 tona çatdırılması gözlənilir. “Gedik Kaynak” Neftçala Sənaye Məhəlləsində 2021-ci ildən fəaliyyət göstərir və Azərbaycanda elektrod istehsalı üzrə ixtisaslaşmış yeganə müəssisədir. Sənaye Məhəlləsinin ən böyük ixracatçısı olan şirkət fərqli xarici bazarları da nəzərdən keçirərək, Azərbaycanı elektrod idxalçısından ixracatçısına çevirməyi hədəfləyir. “Gedik Kaynak” elektrod istehsalı üzrə ölkədəki yeganə müəssisə olmasına baxmayaraq, bazarın tələbatını – aylıq 500 tonluq istehsal həcmini qarşılamaq gücündədir. Yaxın zamanda müəssisə Azərbaycanda ilk dəfə olaraq sualtı elektrodların istehsalına başlamağa hazırlaşır. Su altında istifadə olunan qaynaq elektrodları ilə paralel, müəssisə sualtı kəsim elektrodları da istehsal edəcək. Hər iki məhsul gəmi tikintisində, sualtı boru çəkilişində, platformaların sökülməsində və s. geniş istifadə olunur və kifayət qədər tələbatlı mal hesab edilir.



**Füzulinin Dövlətyarlı kəndində bərpa və yenidənqurma işləri 323 hektar ərazini əhatə edir.**

“Füzuli rayonunun Dövlətyarlı kəndində aparılan bərpa və yenidənqurma işləri son sürətlə davam edir. Layihə ümumilikdə 323 hektar ərazini əhatə edir və iki mərhələdə icra olunur”. Bu sözləri jurnalistlərə açıqlamasında Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Leyla Sərabi deyib. O həmçinin qeyd edib ki, birinci mərhələ 137 hektarlıq ərazidə 450 fərdi yaşayış evinin inşası nəzərdə tutulur. Evlər 2, 3, 4 və 5 otaqlı variantlarda tikilir: "Ümumi yaşayış sahəsi isə təxminən 40 min kvadratmetr təşkil edir. Kəndin sosial infrastrukturu da paralel şəkildə qurulur, tam orta məktəb, uşaq bağçası, həkim məntəqəsi, eləcə də inzibati və çoxfunksiyalı bina tikilir. Bununla yanaşı, məktəb və bağçalar üçün qazanxana sistemi, transformatorlar və digər mühəndis qurğuların da quraşdırılması nəzərdə tutulur. Birinci mərhələdə bütün əsas kommunal xətlər də çəkilir. İkinci mərhələdə ictimai və ticarət binaları, idman-sağlamlıq mərkəzi, bazar, fəvvarə və avtomobil texniki xidmət məntəqəsi kimi obyektlər də planlaşdırılıb". Qeyd edək ki, bu layihə Füzuli rayonunun müasir infrastruktur konsepsiyasına tam uyğun şəkildə, “ağıllı kənd” prinsipləri ilə həyata keçirilir.



**Hörmətli sahibkarlar!**

15 oktyabr Bakı Biznes Mərkəzində Belarusiyadan tikinti sahəsini əhatə edən şirkətlərdən ibarət nümayəndə heyəti ilə biznes Forum və B2B görüşlər keçiriləcək.
Üzvlərimiz dəvətlidir.
**Əlaqə nömrəsi: 050 250 95 17**

# ANONS

**Hörmətli sahibkarlar!**

Azərbaycan Standartlaşdırma İnstitutu tərəfindən hazırlanmış "2026–2028-ci illər üzrə Milli Standartlaşdırma Proqramı"nın yekun layihəsi üzrə rəy və təkliflərin toplanması prosesi davam edir."Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanunu və müvafiq normativ aktlarına əsasən, proqram layihəsində ölkənin sosial-iqtisadi inkişaf prioritetləri, texniki tənzimləmələrin tələbləri, beynəlxalq və regional standartlara uyğunlaşdırma istiqamətləri nəzərdə tutulmuşdur.Tikinti sektoruna aid standartlarla bağlı hər hansı əlavə, düzəliş və ya yeni təklifləri olan üzvlərimizin, həmin təklifləri 27 oktyabr 2025-ci il tarixinədək Azərbaycan Tikinti Materialları İstehsalçıları Assosiasiyasına (ATMİA) təqdim etmələri xahiş olunur.ATMİA tərəfindən daxil olan bütün təkliflər Azərbaycan Standartlaşdırma İnstitutuna (AzStandart) təqdim ediləcək.

**Təkliflərin qəbulu üçün son tarix: 27 oktyabr 2025**

**Əlaqə: info@atmia.az**

**Hörmətli sahibkarlar!**

18-19 noyabr 2025-ci il tarixlərində Bişkek şəhərində "CAREC Biznes Forumu 2025" keçiriləcəkdir. CAREC (Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq) Proqramı — 11 ölkə və beynəlxalq maliyyə institutlarını birləşdirən strateji platformadır. Bu çərçivədə keçiriləcək CAREC Biznes Forumu (CBF) hökumət nümayəndələri, sahibkarlar, investorlar və beynəlxalq tərəfdaşları bir araya gətirərək regional əməkdaşlıq, investisiya və biznes imkanlarını genişləndirməyi hədəfləyir.

Forumun əsas məqsədləri:

* CAREC nəqliyyat dəhlizlərinin iqtisadi potensialını müəyyənləşdirmək, xüsusilə Orta Dəhliz (Corridor 2) üzrə imkanları qiymətləndirmək; * Dövlət-özəl tərəfdaşlığı (PPP) və sərmayə imkanlarını inkişaf etdirmək; * B2B və B2G görüşləri vasitəsilə transsərhəd əməkdaşlıq və investisiya mühitini gücləndirmək; * Rəqəmsallaşma və yaşıl iqtisadiyyat sahəsində regional uğur hekayələrini paylaşmaq.

Əsas mövzular və sektorlara yönəlim:

* Ağıllı logistika və rəqəmsal ticarət; * Elektron kommersiya və fintex;* Davamlı nəqliyyat və ağıllı şəhər mobilliyi; * Yaşıl enerji və davamlı turizm

**Əlaqə:** info@atmia.az

**Tel: +994 (50) 250 95 17**

ATMİA

**Sərginin adı: ROADS, BRIDGES AND TUNNELS MENA CONFERENCE 2025**

**Tarixlər: 20 oktyabr 2025-ci il,**

**Məkan: Dubay (BƏƏ - Birləşmiş Ərəb Əmirlikləri)**

BƏƏ, Səudiyyə Ərəbistanı və Qətər liderləri yol şəbəkələri və tunellərin qarşılıqlı əlaqənin gücləndirilməsində və iqtisadi diversifikasiyanın dəstəklənməsində transformativ rolunu müzakirə etmək üçün Dubayda toplaşırlar.

**Sərginin adı: INTERLIGHT RUSSIA | INTELLIGENT BUILDING RUSSIA 2025**

**Tarixlər: 21-24 oktyabr 2025-ci il,**

**Məkan: Crocus-Expo IEC, Moskva (Rusiya)**

Dekorativ və Texniki İşıqlandırma, Elektrik Mühəndisliyi, Ev və Binaların Avtomatlaşdırılması üzrə Beynəlxalq Ticarət Sərgisi.

**Sərginin adı: UZSTROYEXPO 2025**

**Tarixlər: 21-23 oktyabr 2025-ci il**

**Məkan: Uzexpocentre, Daşkənd (Özbəkistan)**

Beynəlxalq Tikinti, İstilik və Havalandırma Sistemləri, Su Təchizatı, Suyun Təmizlənməsi, Sanitariya Sərgisi.

**Sərginin adı: DESIGN. LIVING TENDENCY 2025**

**Tarixlər: 22-24 oktyabr 2025-ci il,**

**Məkan: Kiyev (Ukrayna) Kiyev Beynəlxalq Sərgi Mərkəzi**

Design Living Tendency interyer sektorunda ən yeni tendensiyaların ən böyük Ukrayna sərgisidir. O, mebel, işıqlandırma, dekorasiya, ev tekstili və pəncərə dekorasiyasını təqdim edir.

**Sumqayıtda təmir və abadlıq işləri ilə bağlı - TENDER KEÇİRİR.**

Sumqayıt Şəhər İcra Hakimiyyəti açıq tender elan edib.
Müsabiqə "Sumqayıt şəhəri, Sahil küçəsində yolun asfalt örtüyünün əsaslı təmiri (II hissə)" işlərinin satın alınmasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Rəhimdil Əhmədov, baş məsləhətçi
Email: rahimdil.ahmadov@mail.ru
Əlaqə telefonu: +994 18 655 14 48



**Bu ərazilərdə yerləşən köçkün evləri təmir ediləcək - TENDER ELANI.**

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Mənzil İstismar Departamenti açıq tender elan edib.
Tender Ağcabədi və Sabirabad rayonlarında salınmış məcburi köçkün qəsəbələrində yerləşən mənzillərin və fərdi yaşayış evlərinin təmirini əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Fariz Abbasov, Sektor müdiri
Email: fariz.abbasov@idp.gov.az
Əlaqə telefonu: +994 12 430 15 30



**Azərbaycanda su anbarının bərpası üçün 1,1 milyonluq - TENDER KEÇİRİLİR.**

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyindəki "Tikilməkdə Olan Obyektlərin Müdiriyyəti" PHŞ açıq tender elan edib.
Müsabiqə Qusar rayonunda "Bənövşə gölü" su anbarının bərpası və yenidən qurulması işlərinin satın alınmasını nəzərdə tutur.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Yusif Hüseynov, Planlama və Satınalmaların Təşkili şöbəsinin baş məsləhətçisi – şöbə müdirinin müavini
Email: yusif.huseynov@toom.gov.az
Əlaqə telefonu: +994 55 225 12 31



**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİNİN TƏSƏRRÜFAT HESABLI ƏSASLI TİKİNTİ VƏ TƏCHİZAT İDARƏSİ TENDER ELAN EDİR.**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfat Hesablı Əsaslı Tikinti Və Təchizat İdarəsi açıq tender elan edir.
Elan Respublika üzrə bir sıra təhsil müəssisələrində təmiri işləri satın alınmasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Salahova Nuranə-Gülgün, Baş mütəxəssis
Email: Nurana.Gsalahova@etti.edu.az
Əlaqə telefonu: +994 12 465 73 48



**FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ TİKİNTİDƏ TƏHLÜKƏSİZLİYƏ NƏZARƏT DÖVLƏT AGENTLİYİNİN TİKİLMƏKDƏ OLAN OBYEKTLƏRİN BİRLƏŞMİŞ MÜDRİYYƏTİ TENDER ELAN EDİR.**

Fövqəladə Hallar Nazirliyi Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Tikilməkdə Olan Obyektlərin Birləşmiş Müdriyyəti açıq tender elan edir.
Elan Hacıqabul rayonu ərazisində 2 ədəd fərdi yaşayış evinin tikintisi və 3 ədəd fərdi yaşayış evinin bərpası satın alınmasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi –

Rəşad Cəfərov, Müqavilə və satınalma sektorunun müdiri
Email: jafarov.rashad@fhn.gov.az
Əlaqə telefonu: +994 12 512 22 64



**"BAKI KONQRES MƏRKƏZİ" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ TENDER ELANI.**

"Bakı Konqres Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti açıq tender elan edib.
Elan "Bakı Konqres Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətin inzibati binasının mərmər döşəməsinin kristallaşması və təmiri xidmətlərinin satın alınmasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi –

Emin Rüstəmov, Satınalma mütəxəssisi
Email: erustamov@bakucc.az
Əlaqə telefonu: +994 50 273 99 58





www.atmia.az